# “Qüvvət elmdədir...”

## *Professor Kamil Hüseynoğlunun 70 yaşına uvertüra-məktub*

*Turanlıların varisləri çox olmuşdur. Şərqdə onlar əsasən türkdilli və irandilli xalqlara, qərbdə isə german və Roma xalqlarına qarışmışlar onların çətinliyi isə öz dillərində danışan varislər qoya bilməmələrində olmuşdur. Y.Rerix turanlıların bir qolu olan toxarlardan danışarkən qeyd edir ki, “toxarlar uzun müddət Daxili Asiyada irandilli və türkdilli tayfalar arasında yaşamış və axırda onları əhatə edən etnik mühitdə ərimiş çox qədim tayfalar qrupuna mənsub idilər”. Buna baxmayaraq, müasir türk xalqlarının çoxu fəxrlə qədim turanlıları öz ulu əcdadları hesab etdikləri kimi, kelt dilini çoxdan itirmiş fransızlar da igid və fərasətli qalların (kelt tayfalarından birinin adıdır) varisləri olduqlarını söyləməyi çox xoşlayırlar.*

**K.HÜSEYNOĞLU**



Hörmətli professor Kamil Hüseynoğlu yazdıqlarınızı və Sizin haqqınızda yazılanları məhdud vaxt imkanları çərçivəsində aradım. Yaradıcılığınız haqqında yazılanlar demək olar ki, hamısı mülahizələrinizə cavablar və bir çox hallarda sizinlə mübahisələrdən ibarətdir.

Açığı mübahisələrə girişmək və son nəticədə öz mülahizələrini elmi hazırlığına güvənərək, dəqiq istinadlarla müdafiə etmək alimin hünəridir.

Sosial şəbəkədə və mətbuat səhifələrində Azərbaycan şeir mədəniyyəti, Azərbaycanda əruzun tarixi ümumiyyətlə Azərbaycan şeirinin vəzn tarixi ilə bağlı fikir və mülahizələriniz kəskin diskussiyalara səbəb olub. Mən bu diskussiyaları maraqla izləmişəm. Qədim turanın tarixi, kökü, məkanı ilə bağlı mülahizələriniz də mübahisə doğurub. Ancaq burada da görmüşəm ki, elmə güvəncinizlə səngərinizi qorumaqda israrlısınız. “Avesta”, “Zərdüşt”, “Novruz” anlamları ilə bağlı tədqiqatlarınız bir çox hallarda stereotip düşüncələri darmadağın edib. Azərbaycanda Dədə Qorqudun izləri ilə bağlı mülahizələriniz də mübahisə doğurur. Sizin faktlarınız, dəlilləriniz bir çox hallarda təkzibolunmazlıq gücündə görünür. Hətta bəzən mən hiss edirəm ki, mübahisələrdə bildiklərinizin bir çoxunu, istinadlarınızın hamısını üzə çıxarmır. Sanki ehtiyyatda saxlayırsınız.

Böyük Nizami demiş: “Qüvvət elmdədir...” demək yarımçıq elm ictimai mühitdə yarımçıq həqiqətdən o tərəfə keçə bilməz. Bütün mübahisələrdə elmi həqiqətlərə güvənərək alim həmkarlarınızı elmi mübahisələrin dərinliyinə çəkməklə bəşərin elm mədəniyyətinə əvəzsiz xidmətlər göstərmiş olursunuz.

Hömətli Kamil Hüseynoğlu! Sizin “Azərbaycan şeir mədəniyyəti (yaranma və təkamül dövrü)” (1996), “Qədim turan: mifdən tarixə doğru” (2006), “Mifin mənşəyi, mahiyyəti və tipologiyası”(2010), “Elmi mübahisələr” (2015)... kitablarınızla tanışlıq göstərir ki, ömrünü elmə sərf edən alim üçün kəmiyyət şərt deyil az kitabla, az əsərlə də böyük mətləblərə nüfuz etmək, ən dərin sirlərə də yol açmaq olar. Bir çox psevdo tədqiqatçılar sizin radikal baxışlarınıza sadəlöhv vətənçilik mövqeyindən yanaşaraq mövqeyinizə şübhə örtüyü çəkə bilər. Ancaq həmin andaca istər sosial şəbəkədə, istərsə də mətbuatda dəmir məntiqə söykənən fikir və mülahizələrinizlə qarşılaşır, nəticədə ehtiyyatla geri çəkilməli olurlar.

Sadəcə xronika xatirinə apponentlərimizin diqqətinə həyatınızla bağlı faktları da çatdırmaq istərdim: 1950-ci ildə Babək rayonunda doğulmusunuz. 1973-cü ildə Bakı Dövlət Universitetinin Şərqşünaslıq fakültəsini bitirmisiniz. Filologiya üzrə elmlər doktoru, professorsunuz. 200-ə yaxın məqalənin və 12 kitabın müəllifisiniz. Araya-ərsəyə gətirdiyiniz monoqrafiyalar, çox dəyərli elmi məqalələr Azərbaycanda ictimai, elmi təfəkkürün zənginləşməsinə və dərinləşməsinə xidmət edir. Məhz sizin dəyərli mülahizələriniz və dərin düşüncələriniz gənc alimlərdə elmə məsuliyyətlə yanaşma hissinin formalaşmasında əvəzsiz əhəmiyyət kəsb edib.

Sizin Azərbaycan dövlətçiliyi ilə bağlı mülahizələriniz çox dəyərlidir. Xüsusilə Şah İsmayıla münasibətiniz bu böyük şəxsiyyətin müasir düşmənlərinə ən yaxşı cavabdır: “...xalq şeirimizin və onun zirvəsi sayılan aşıq sənətinin yaranmasında da Şah İsmayılın müstəsna rolu olmuşdur. Ümumiyyətlə götürdükdə isə, tariximizdə həm Azərbaycan dövlətçiliyinin, həm də Azərbaycan dili, ədəbiyyatı və mədəniyyətinin inkişafında Şah İsmayıl qədər müstəsna xidmətlər göstərmiş ikinci bir şəxsiyyət tapmaq çətindir”. Sizin kimi bir alimin bu sözləri çox dəyərlidir.

Hörmətli professor, bu il sizin 70 illik yubileyiniz olacaq. Elmdə fərqli düşüncə sahibi kimi zəngin yaradıcılığınız tədqiq olunmalı, öyrənilməlidir.

Bu qeydləri 70 illik yubileyinizin tərəfimizdən “Ön söz”ü kimi yazdıq. Sizə uğurlar, daha böyük elmi nailiyyətlər arzulayırıq.

***Ə.R.XƏLƏFLİ.***

***13.03.2020***

Kredo 2020.- 16 mart.- S.1.